Cənubi Qafqaz ölkələrinin dövlət quruculuğu prosesində Yaponiyanın fəal yardımının böyük əhəmiyyəti olacaq, nəticədə Yaponiya nəinki ən yeni müstəqil ölkələr, habelə onların qonşuları - Rusiya Federasiyası, ÇXR, həmçinin, Türkiyə və İran ilə XXI əsrdə Avrasiya regionunda özünün siyasi və iqtisadi təsirini əhəmiyyətli dərəcədə genişləndirəcək.

Məhz ona görə də Yaponiya Heydər Əliyevin irəli sürdüyü Böyük İpək Yolunun bərpası təşəbbüsünə fəal dəstək vermiş, bu məsələdə Bakı ilə Tokionun maraqları tamamilə üst-üstə düşmüşdür. Xatırladaq ki, yeni "İpək Yolu" Yaponiyadan başlayaraq, Çin və Orta Asiyadan, daha sonra isə Xəzər dənizindən və Azərbaycandan keçir. Heydər Əliyevin dediyi kimi, "Yaponiya bu yolun ən Şərq nöqtəsində, Azərbaycan isə ortasındadır". Yaponiya Nazirlər Kabinetinin 1998-ci ilin yanvar ayında qəbul etdiyi Böyük İpək Yolunun Diplomatiyası fəaliyyət Proqramı da "Avrasiya diplomatiyası" strategiyasını ifadə edir. Yaponiya Azərbaycan Respublikasına İpək Yolunun üstündə yerləşən əsas ölkə kimi baxır. Azərbaycanın güclənməsi Avropa və Asiyanın bir çox ölkələrinin ümumi maraq dairəsindədir. Bununla əlaqədar Azərbaycanla iqtisadi və siyasi əlaqələrin inkişafı Yaponiyanın "Avrasiya diplomatiyasında" xüsusi yer tutur.

Yaponiyanın köməyilə Bakı, Gəncə, Sumqayıt, Mingəçevir və başqa şəhərlərdə bir çox müəssisələr müasirləşdirilmiş, yeni infrastruktur layihələri həyata keçirilmişdir...

## Xarakterik yapon vicdanı

Yaponlar bir sıra maraqlı xarakterik xüsusiyyətlərə malikdirlər. Komatsu şəhərindən axşamdan keçmiş qatarla Tokioya yola düşdük. Gecə ikən paytaxta çatdıq. Hoteldəki otağıma daxil olanda hiss etdim ki, mobil telefonumu qatarda unutmuşam. Dərhal səfirliyimizin müşaviri Fərid Talıbova zəng edib, telefonumun qatarda qaldığını bildirdim. Fərid Talıbov çox təmkinlə, həm də nikbinliklə bildirdi ki, narahat olmağıma əsas yoxdur. Qatarda qalıbsa, tapılacaq. 15 dəqiqə keçməmiş Fərid zəng etdi ki, Hüseynbala müəllim, sabah saat 10-dan 17-yə kimi, istədiyiniz vaxt gedib telefonunuzu "İtirilən və tapılan" əşyalar bürosundan götürə bilərik. O gün təqribən saat 15 radələrində Fəridlə birlikdə həmin büroya getdik. Büronun əməkdaşı bizi çox mehribancasına qarşıladı və nəzakətlə kiçik sorğu-sualdan sonra telefonumu mənə göstərib: "Bu sizin telefondur?" - deyə soruşdu. "Bəli" - dedim. İlk baxışdan bu əhvalatı xatırlamağım, bəlkə də bəzi oxuculara çox adi görünə bilər. Amma Allahın varlığına inanmayan, yəni Allahsız olan yaponlarda vicdan, dürüstlük anlayışı sözün əsl mənasında adamı heyrətləndirir. Çünki Allahın müsəlman bəndələri üçün müqəddəs Qurani-Şərifdə rəva bildiyinin çoxuna yaponlar çox doğru-dürüst, vicdanla əməl edirlər.

Ötən səfərimdən bəhs edən məqaləmdə də bu barədə yazmışdım. "İtirilən və tapılan" əşyalar bürosu yapon xalqının heç də hər millətə xas olmayan milli xarakterinin, *vicdan* anlamının bariz göstəricisidir... İki il öncənin statistik məlumatlarına görə, Tokionun sakinləri və qonaqları fantastik məbləğdə - 3 milyard 424 milyon 11 min 977 yen itirib. Bu, həmin şəxslərin market, nəqliyyat vasitələri - metro, sürət qatarı, taksi və digər ictimai yerlərdə unutduğu və yerli sakinlər tərəfindən tapılaraq polisə təhvil verilən məbləğdir. O dövrki məzənnəyə görə bu, təqribən 32 milyon ABŞ dollarına bərabərdir. Təbii ki, belə statistika yaponların nə dərəcədə vicdanlı, dürüst olmasına dəlalət edən bir faktdır.

Qanuna görə, əgər itirilən hər hansı əşyanın sahibi 3 ay müddətində axtarılırsa, onu tapana verilir. Əgər həmin şəxs də özü bununla bağlı büroya müraciət etmirsə, onda tapılan əşya dövlətin mülkiyyətinə çevrilir.

Maraqlısı budur ki, Yaponiya bayrağındakı ağ rəng də dürüstlük və saflığı, qırmızı dairə isə ölkədən doğan günəşi təmsil edir.

## Görüşlər... Görüşlər...

Dekabrın 6-da nümayəndə heyətimizi Yaponiya Xarici İşlər Nazirliyinin Avropa məsələləri bürosu Baş direktorunun müavini, Mərkəzi Asiya, Qafqaz və GUAM ölkələri üzrə xüsusi nümayəndəsi səfir Toşihiro Aiki qəbul etdi. Görüşdə iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyinin uğurla qeyd edildiyi bildirildi, ötən dövrdə qarşılıqlı rəsmi səfərlərin artdığı, iqtisadi əməkdaşlığın genişləndiyi xüsusi vurğulandı. Yaponiya XİN-nin iki ölkənin regionları arasında əməkdaşlıq əlaqələrinin inkişafını dəstəklədiyi və bu istiqamətdə lazım olan köməyi göstərməyə hazır olduğu diqqətə çatdırıldı. Qeyd olundu ki, bu əlaqələrin inkişafı iki dost ölkəni bir-birinə daha da yaxınlaşdıracaq.

Nümayəndə heyətimizin Setaqaya şəhərinin meri Nobuto Hosaka ilə görüşü də çox maraqlı keçdi. Ötən ilin dekabrında qarşılıqlı əməkdaşlığın inkişafı ilə bağlı aparılan müzakirələr xatırlandı, gələcək fəaliyyət barədə fikir mübadiləsi aparıldı. Bildirildi ki, Setaqaya şəhəri və Xətai rayonu arasında dostluq münasibətlərinin qurulması məqsədilə qarşılıqlı təbliğatın aparılması davam etdirilməlidir və bu məqsədlə nümayəndə heyətimizin başçısı Razim Məmmədov Setaqaya şəhərinin merini Azərbaycana dəvət etdi.

"Cross Border Club" şirkətinin baş meneceri, tanınmış iş adamı Kazuyasu İşida ilə "Kosuqi Zohen" şirkətinin rəhbəri Saki Kosuqi və digər şəxslərlə səmərəli görüşlər keçirib, işgüzar müzakirələr apardıq. Nümayəndə heyətimizin üzvləri ilə köhnə dostlar kimi görüşən Kazuyasu İşida Bakıda təşkil edilən "Japan Expo-2017" sərgisi zamanı yapon biznesmenlər tərəfindən Xətai rayonunun da ziyarət olunduğunu xatırladı. Göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən K.İşida Yaponiyada Azərbaycanın təşviqi istiqamətində fəaliyyətini bundan sonra da genişləndirəcəyini bildirdi.

"Kosuqi Zohen Co.Ltd" şirkətinin rəhbəri Saki Kosuqi ilə keçirilən görüşdə şirkətin rəhbəri bundan sonra da iki ölkə arasında dostluq və əməkdaşlığın inkişafı istiqamətində səylərini artıracağını, növbəti birgə layihələrdə iştirak etməyə hazır olduğunu bildirdi... Görüşlərdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Bütün bu silsilə görüşlərdə nümayəndə heyətimizin rəhbəri Razim Məmmədov ölkəmizin müstəqilliyini bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə dövlətçiliyin möhkəmləndirilməsi, iqtisadiyyatın bərpası və sürətli inkişafı ilə bağlı görülən işlər barədə ətraflı məlumat verdi. Razim müəllim xüsusilə qeyd edirdi ki, möhtərəm Prezidentimiz İlham Əliyev cənabları tərəfindən uğurla həyata keçirilən siyasət nəticəsində Azərbaycan regionun lider dövlətinə çevrilib və dünyanın sürətlə inkişaf edən iqtisadiyyatları arasında mövqeyini möhkəmləndirib.

Azərbaycan-Yaponiya diplomatik münasibətlərinin qurulmasının 25 illiyinin yubiley kimi qeyd olunduğunu xatırladan Razim müəllim dostluq və əməkdaşlıq münasibətlərinin inkişafında start nöqtəsi olan bu tarixi hadisənin Azərbaycanda, o cümlədən, paytaxtın Xətai rayonunda da bir sıra mədəni-kütləvi tədbirlərlə qeyd edildiyini diqqətə çatdırdı. Eyni zamanda yubileylə bağlı Prezident İlham Əliyev və Yaponiyanın Baş naziri Şinzo Abe arasında təbrik məktubları mübadiləsinin həyata keçirildiyini bildirdi.

2017-ci ildə Azərbaycan və Yaponiya arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyinin keçirilməsi ilə bağlı mən və Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin sektor müdiri Səadət xanım Rəhimli ölkələrimizin dostluq münasibətlərinin xalqlarımız arasında da yayılmasının əhəmiyyətini qeyd etdik, regionlararası əməkdaşlığın münasibətlərdə yeni imkanlar yaradacağına əminliyimizi bildirdik. Söhbət zamanı onu da qeyd etdik ki, Yaponiya və Azərbaycan dövlətləri arasında qurulmuş əməkdaşlıq əlaqələrinin möhkəmlənməsi baxımından qarşılıqlı səfərlərin və dialoqun artırılması vacibdir və bu mədəni əlaqələrin inkişafında xalq diplomatiyasının intensivləşməsinə şərait yaradacaq. Həm də iki ölkə vətəndaşlarının qarşılıqlı səfərlərinə, turizm sektorunun inkişafına öz təsirini göstərəcək.

## İzdihamlı Kenzo

Vətənə dönüş ərəfəsində olduğumuzu, həm də qarşıdan gələn yeni il bayramını nəzərə alıb, hədiyyə almaq məqsədilə Səadət xanım, Pənah müəllim və mən birlikdə Kenzoda bazarlığa çıxdıq. Onu da deyim ki, biz Tokioda olduğumuz vaxt KİV-lər dünyanın ən hündür canlı yeni il ağacının Yaponiyanın Kobe şəhərində qurulduğundan bəhs edirdi. Kobe şəhəri Tokionun təqribən 600 kilometrliyində yerləşir. Orada - Meriken parkında qurulmuş və yeni il bayramı münasibətilə bəzədilmiş 30 metrlik şam ağacını görmək üçün sakinlər Yaponiyanın hər yerindən əraziyə axın edirdilər. Yaponiyada Şaxta babanı "Seqaçu-san", yəni "cənab Yeni il" adlandırırlar.

İzdihamlı Kenzoda alış-veriş zamanı üzgözündən təbəssüm yağan yaponları görəndə cib dəftərimə qeyd etdiyim bir müdrik kəlamı xatırladım: "Kədər cırılmış paltar kimidir, onu evdə qoymaq lazımdır". Sanki yaponlar atalar sözlərinə də qanun kimi əməl edirlər.

Qısası, bir xeyli gəzib-dolaşdıq. Hotelə dönmək üçün taksi soraqlaşmalı olduq. Tokioda taksilər yalnız xüsusi yerlərdə dayanırlar. Ortayaşlı bir yapon xanımından soruşduq ki, taksi dayanacağı hansı səmtdədir? O dedi ki, bu ətraflarda taksi dayanacağı yoxdur. Sonra əlavə etdi: "Amma mən sizə kömək edərəm".

Təbii ki, yapon xanım bizim qonaq olduğumuzu bilmişdi. Küçədə hərəkət edən bir neçə taksini saxlatdı və onlara izah etdi ki, bu qonaqları qaldıqları hotelə aparmaq lazımdır. Sürücülər, görünür, ona "biz yalnız dayanacaqlarda sərnişin götürürük", - deyib etiraz edir və yollarına davam edirdilər. Nəhayət, bir taksi sürücüsü qadını dinləyəndən sonra bizi hotelə aparmağa razılıq verdi.

Həmin qadın, demək olar ki, ən azı 15 dəqiqə bizə taksi tapmaq üçün vaxt itirdi. Bax, bu da yaponların məsuliyyət hissi, səmimiyyətindən, həm də qonaqpərvərliyindən irəli gələn xüsusiyyətlərdən biri idi...

Bu məqamda bir neçə kəlmə əfsanəvi və izdihamlı Kenzo barədə söhbət açmaq istərdim. Dünya şöhrətli yapon memarı Kenzo Tange XX əsrin ən görkəmli sənətkarlarından olub. O, modernizmlə ənənəvi yapon memarlığını birləşdirərək özünəməxsus yeni memarlıq üslubu yaradıb. Memarın layihələşdirdiyi tikililər dünyanın beş qitəsində ucaldılıb. K.Tange 1987-ci ildə memarlıq sahəsinin ən nüfuzlu mükafatlarından olan Pritsker mükafatına layiq görülüb.

4 sentyabr 1913-cü ildə Yaponiyanın Osaka prefekturasının Sakayi şəhərində dünyaya göz açan Kenzo hələ məktəbli olduğu dönəmlərdə məşhur memar Le Korbuzyenin kitablarından təsirlənir və memar olmağa qərar verir. 1935-ci ildə Tokio Universitetinin mühəndislik fakültəsinə daxil olan K.Tange burada memarlıq sahəsində ali təhsilini başa vurandan bir neçə il sonra Tokio Universitetinin magistraturasına qəbul olur. 1946-cı ildə universitetdə assistent kimi fəaliyyətə başlayan gənc memar öz laboratoriyasını yaradır. 1963-cü ildə isə Şəhər Mühəndisliyi və şəhərsalma ixtisası üzrə professor adını qazanır.

Kenzo Tangenin Xirosima Sülh Xatirə Parkının, Tokio şəhərində 1964-cü il Yay Olimpiya Oyunları üçün nəzərdə tutulan və XX əsrin ən gözəl dizayn edilmiş komplekslərindən biri olan Yoyoqi İdman Kompleksinin inşasında misilsiz xidmətləri olub. Tangenin məşhur layihələri arasında 1960-cı ilə aid Tokio şəhərinin bütünlüklə yenidən qurulması ilə bağlı baş plan da var. Bunun həyata keçirilməsi bütünlüklə mümkün olmasa da, planın mövcudluğu dünya memarlarının yeni ideyalar qaynağına çevrilib. Tokio şəhərində 1964-cü ildə onun layihəsi əsasında inşa edilən Müqəddəs Mariya Kafedralı - Roma-Katolik kilsəsinə mənsub olan kafedral XX əsrin ən müasir kilsələrindən sayılır.

Böyük memarın əsərlərinə dünyanın bir çox ölkəsində rast gəlmək mümkündür. Onun layihəsi əsasında ABŞ, Sinqapur, Bəhreyn, Nigeriya və Makedoniyada gözəl binalar ucaldılıb. 91 il ömür sürən görkəmli memar 2005-ci ilin 22 mart tarixində Tokioda vəfat edib. Onun cənazəsi bir zamanlar özü tərəfindən dizayn edilmiş Tokio Kafedralında təşkil edilən dini mərasimin ardından torpağa verilmişdir.

## Səfirlikdə sonuncu gün

Nümayəndə heyətimizin son görüşü Gündoğar ölkədə Azərbaycanın bir parçası olan Yaponiyadakı səfirliyimizdə keçirildi. Səmimi söhbət zamanı səfir Gürsel İsmayılzadə Yaponiya ilə ölkəmizin əlaqələrinin son illər daha da intensiv xarakter aldığından, Azərbaycana marağın daha da artdığından danışdı. Cənab səfir bildirdi ki, Azərbaycanın beynəlxalq tədbirlərə ev sahibliyi etməsi, dünyanın mədəni-siyasi mərkəzlərindən birinə çevrilməsi nəticəsində yaponların da ölkəmizə marağı artmış, respublikamıza səfər edən turistlərin sayı çoxalmışdır.

Nümayəndə heyətimizin başçısı Razim Məmmədov Yaponiyadakı səfərin təşkilində göstərilən köməyə görə başda Gürsel İsmayılzadə olmaqla, səfirliyin əməkdaşlarına təşəkkürünü bildirdi. Razim müəllim qeyd etdi ki, nümayəndə heyətimizin Yaponiyaya səfəri səmərəli olub, regionlararası əməkdaşlığı gücləndirmək vəzifəsi uğurla icra edilib. İki ölkə arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlığı daha da inkişaf etdirmək məqsədilə qarşı tərəfin nümayəndələrinin, xüsusilə Komatsu şəhərinin meri Şinci Vada və Setaqaya şəhərinin meri Nobuto Hosakanın Azərbaycana dəvət olunması təqdir olundu...

Görüşün sonunda nümayəndə heyətimizin üzvləri də çıxış etdilər: Səadət xanım Rəhimli, Pənah İmanov və mən Gündoğar ölkəyə səfərimizin təşkilində göstərdikləri köməyə görə diplomatik korpusun əməkdaşlarına təşəkkür və minnətdarlıqlarımızı bildirdik. Onlara bu Gündoğar ölkədəki fəaliyyətlərində uğurlar dilədik.

Və beləliklə, dekabrın, bizim üçün belə desək, birinci dekadası xoş səfər təəssüratlarıyla başa çatdı. Ertəsi gün təyyarə ilə Bakıya gələ-gələ Cənubi Qafqaz regionunun aparıcı ölkəsi kimi Azərbaycanla Yaponiya dostluğunun sabahını düşünürdüm. Və içimə sanki göy qübbəsindən bulaq suyu kimi dupduru bir *inam* hissi çeşmə kimi süzülürdü.

"Əgər problemi həll etmək mümkündürsə, onda narahat olmağa dəyməz. Əgər onu həll etmək mümkün deyilsə, onda narahat olmaq əbəsdir" atalar sözünə malik Yaponiya, doğrudan da, dünyada nadir ölkədir ki, qısa zaman kəsiyində sürətlə inkişaf edən məkana çevrilmişdir. Asiya-Sakit okean regionunda liderliyi əldə saxlayan Gündoğar ölkənin təsadüfi deyildir ki, bu sıçrayışını dünyada "Yaponiya möcüzəsi" adlandırırlar. Bir ölkəylə dostluq əlaqələri doğma Azərbaycanımıza yalnız böyük uğurlar qazandıra bilər... Düşünürəm ki, dünyanın bu cür yüksək mövqeyə, ixrac və idxal potensialına malik ölkəsi ilə Azərbaycanın qarşılıqlı faydalı əlaqələr qurması strateji baxımdan da əhəmiyyətli olacaqdır!

*Dekabr 2017-yanvar 2018,*
*Bakı-Tokio-Bakı*